BİZİM ŞÜAR:
"NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"

UNUTMA!

Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

Sıra	Rayonların adı	Sahəsi	Kənd və digər yaşayış məntəqələrinin sayı	İşğal zamanı əhalinin sayı	İşğal olunduğu tarix	Şəhidlərin sayı	Milli Qəhrəmanların sayı
1	Xankəndi	302 kv.km	25 (25)	18 min nəfər	1991	102 nəfər	—
2	Xocavənd	1458 kv.km	78 (78)	10 min nəfər	18.02.1992	145 nəfər	—
3	Xocalı	926 kv.km	65 (65)	12 min nəfər	26.02.1992	3200 (613)	10 nəfər
4	Şuşa	289 kv.km	30 (30)	25 min nəfər	08.05.1992	250 nəfər	3 nəfər
5	Laçın	1835 kv.km	126 (126)	60 min nəfər	18.05.1992	262 nəfər	5 nəfər
6	Kəlbəcər	1936 kv.km	124 (124)	68 min nəfər	02.04.1993	200 nəfər	2 nəfər
7	Ağdərə	1705 kv.km	58 (58)	49 min nəfər	17.06.1993	145 nəfər	—
8	Ağdam	1094 kv.km	121 (80)	150 min nəfər	23.07.1993	5000 nəfər	15 nəfər
9	Cəbrayıl	1050 kv.km	90 (89)	59 min nəfər	23.08.1993	381 nəfər	6 nəfər
10	Füzuli	1392 kv.km	75 (51)	100 min nəfər	23.08.1993	1000 nəfər	8 nəfər
11	Qubadlı	802 kv.km	95 (95)	30 min nəfər	31.08.1993	200 nəfər	10 nəfər
12	Zəngilan	707 kv.km	83 (83)	35 min nəfər	30.10.1993	200 nəfər	3 nəfər
	Cəmi:	13490 kv.km	970	616 min nəfər	—	10085 nəfər	62 nəfər

Qeyd: *Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

NÜMUNƏVİ XİDMƏT

67987 saylı hərbi hissənin Patrul Taborunun tərbiyə işləri üzrə müavini mayor İlqar Həmidov 1964-cü ildə Zaqatala rayonunda dünyaya göz açıb. 1982-1984-cü illərdə Macarıstan dövlətində hərbi xidmət keçib. Xidmətdə olarkən əsl hərbçi olmağı qarşısına məqsəd qoyan mayor İ.Həmidov Azərbaycan Pedoqoji Universitetinin "Hərbi hazırlıq" fakültəsinə qəbul olur. 1995-ci ildən DİN-in Daxili Qoşunlarında həqiqi hərbi xidmətə başlayır və bu günə kimi də xidmətini şərəflə davam etdirməkdədir. Bu illər ərzində nizam-intizamı, əxlaqı və iş qabiliyyətinə görə yuxarı rəislərin, eləcə də yoldaşlarının rəğbətini qazanıb. Döyüş hazırlığının, nizam intizamın yüksək səviyyədə saxlanılmasında məsuliyyət hissini, mənəvi-psixoloji durumu ən vacib şərtlərdən biri kimi dəyərləndirən mayor İ.Həmidov taborda bütün dərəcəli hərbi qulluqçuларla tərbiyə işi tədbirlərini müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edir. Şəxsi heyətlə müntəzəm olaraq tərbiyə saatı məşğələləri planlaşdırılıb keçirilir. Məşğələlər həftənin 2-ci günləri bölüyün zabitləri tərəfindən, 4-cü günləri isə idarə heyətinin zabitləri tərəfindən təşkil olunur. Nəzarət tələb edən, eləcə də, ailə vəziyyəti, sağlamlıq durumu, xidmətə münasibəti ilə problemi olan hərbi qulluqçularla fərdi-tərbiyəvi söhbətlər aparılır.

Mayor İ.Həmidov əlavə olaraq nəzərə çatdırdı ki, şəxsi heyətin bilik səviyyəsinin inkişaf etdirilməsi, dünyagörüşünün artırılması istiqamətində də müvafiq tədbirlər həyata keçirilir: "Məsələn, istirahət günlərində şəxsi heyətlə vətənpərvərlik mövzularında viktorina və disputlar təşkil olunur. Ümumiyyətlə, hər zaman hərbi qulluqçuların dövlət və dövlətçiliyə sadiqlik ruhunda tərbiyə olunmasında əlimdən gələni əsirgəmirəm. Birmənalı olaraq, hər kəs öz işinə məsuliyyətlə, vicdanla yanaşmalıdır".

gizir N.Rzayeva

Gizir Cabir Əliyev Daxili Qoşunların 99713 saylı hərbi hissəsində xidmət edir. 1988-ci il fevralın 8-də Biləsuvar rayonunda anadan olub. 2006-2007-ci illərdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında müddətli həqiqi hərbi xidmət keçib. 2007-2011-ci illərdə Astara Pedoqoji Texnikumunun "Bədən tərbiyəsi və idman" fakültəsində təhsilini davam etdirib. Müntəzəm olaraq idmanla məşğul olur, hətta respublika üzrə keçirilən bir çox yarışlarda da iştirak edərək, yüksək nəticələr əldə edib. Belə ki, 2009-cu ildə karate-do-Aşkara idman növü üzrə ölkəmizdə keçirilən Asiya çempionatında 1-ci yerə layiq görülüb.

2011-ci ildən etibarən Daxili Qoşunların sıralarında xidmət edən gizir C.Əliyev bu illər ərzində bacarığı, savadı, nizam-intizamı sayəsində qrup komandiri vəzifəsinə qədər yüksəlib. Həm özünə, həm də tabeliyində olan şəxsi heyətə qarşı tələbkardır. Hərbi hissə komandanlığı da onu müsbət xarakterizə edir.

Komandiri olduğu qrupun şəxsi heyəti keçirilən məşğələlərdə fəal iştirak edərək, lazımi biliklərə yiyələnir. Elə bunun nəticəsidir ki, respublika əhəmiyyətli tədbirlərdə, o cümlədən ölkəmizi Avropaya, eləcə də bütün dünyaya idman dövləti kimi tanıdan I Avropa Oyunları zamanı qrupun şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib. Həmçinin, oktyabr ayının 3-də Daxili Qoşunların Təlim Mərkəzinin ərazisində polis orqanlarının əməkdaşları ilə birgə keçirilən xüsusi əktiki təlim məşqinə də məhz bu qrupun şəxsi heyəti cəlb edilib və təlimdə göstərilən nizam-intizam DİN rəhbərliyi və Daxili Qoşunlar Komandanlığı tərəfindən yüksək qiymətləndirilib.

Gizir C.Əliyev bundan sonra da birinciliyi qoruyub saxlayacaqlarına, öz üzərlərinə düşən vəzifələri vicdanla yerinə yetirəcəklərinə söz verdi.

leytenant X.Tağıyeva

HƏRBİ XƏBƏRLƏR

AZƏRBAYCANIN MİLLİ HÜCUM PULEMYOTU - HP-7.62

Azərbaycan mühəndisləri tərəfindən yaradılmış 7.62×54 mm çaplı HP-7.62 hücum pulemyotu ilk dəfə 2012-ci ilin sonlarında ictimaiyyətə təqdim olunub. Beynəlxalq səviyyədə - 2013-cü ildə İDEF sərgisində nümayiş etdirilən bu unikal pulemyot bəzi texniki-taktiki xüsusiyyətlərinə görə, İsrailin "Negev NG7" və Belçikanın "FN Minimi 7.62 Mk.3" pulemyotu ilə rəqabət aparacaq səviyyədədir.

İntensiv atəş zamanı qızan lülədən yaranan isti hava axınının nişanalmaya təsirini azaltmaq üçün lülənin üzərində istilik yayıcı təbiq olunub. Pulemyotun əl qundağı yüksək möhkəmliyə malik alüminium ərintidən hazırlanıb. Üst və yanlarda yerləşən piccatini relsləri silaha müxtəlif taktik aksessuarları əlavə etməyə imkan verir. Uzunluğu nizamlanan və yanağın qurulmasına imkan verən plastik qundağa sahib HP-7.62 pulemyotundan atəş qısa (10 atışa qədər), uzun (30 atışadək) qatarlarla və fasiləsiz aparıla bilər.

Silahın çəkisi 8.2 kq, nişangah məsafəsi 1000 metr, ümumi uzunluğu (qundaq açıq vəziyyətdə) 1080 mm, atəş tezliyi dəqiqədə 650-750 atış, döyüş atəş tezliyi dəqiqədə 250 atış təşkil edir.

Pulemyotda ayaqüstü atışlar zamanı atıcıya manə yaratmamaq üçün xüsusi dizayna malik xəzinə hazırlanıb. Bundan başqa, silahda xüsusi dizayna malik dəstəkdən istifadə edilib ki, bu həm dayaq, həm də ayaqüstü atışlarda dəstək kimi istifadə olunur.

"ZÜLFÜQAR" ADLI TORPEDO QAYIĞI NÜMAYİŞ OLUNUB

İran hərbi sənayesi "Zülfüqar" adlı sürətli torpedo qayığını təqdim edib. "Fars" agentliyinin məlumatına görə, qayığın uzunluğu 17 metr, eni 3,3 metr, hündürlüyü 3,5 metr, çəkisi 22 ton, sürəti 70 km/saatdır. Qayıq düşmənin

suüstü və sualtı gəmilərini torpedo hücumları ilə məhv etmək məqsədilə hazırlanıb.

"Zülfüqar" təyyarə daşıyıcılarına hücum üçün də istifadə edilə bilər. Qayıq 200 ton su basımına malik gəmilərin silahlanmasında yer alan 324 markalı torpedoya malikdir.

YENİ ZİREHLİ HƏRBİ MAŞIN

Hərbi texnologiyaların istehsalında məhduduiyyətləri olan Yaponiya yeni zirehli transportyor istehsal edib. Maşın Yaponiya Silahlı Qüvvələrinin sifarişi ilə hazırlanıb.

8x8 şassi formulasında olan maşının həm də amfibiya xüsusiyyətləri də var. Mütəxəssislər bildirir ki, yapon maşını MCV (Maneuver Combat Vehicle) tipi üzərində yaradılıb.

Qeyd edək ki, zirehli transportyor TRDİ proqramı çərçivəsində istehsal edilib.

TANK ƏLEYHİNƏ YENİ MİNA - PK-14

Estoniyanın "Eesti Arsenal" şirkəti yeni istehsal etdiyi istiqamətləndirilmiş tank əleyhinə minanı nümayiş etdirib. Məlumata görə, RK-14 adlanan minanın diametri 16 sm, qalınlığı isə 11 sm-dir.

1,5 kq çəkisində olan minanı müxtəlif vəziyyətlərdə istənilən yerə qoymaq olar. Mina optik nişangahla təchiz olunub. Gələcəkdə isə RK-14-ün lazer və termal nişangahla da təchiz olunacağı nəzərdə tutulub.

Kabel və radiosiqnalla da işləyən mina 50 mm qalınlığında polad zirehi deşə bilir. Minanın məhvetmə məsafəsi isə 150 m-dir.

UZAQMƏNZİLLİ "REAPER ER" PİLOTSUZ UÇUŞ APARATI

Artıq "Reaper ER" pilotsuz uçuş aparatının (PUA) ABŞ Silahlı Qüvvələrində istifadəsinə başlanılıb. Modernləşmə nəticəsində "Reaper ER"in uçuş anı 27 saatdan 33-ə qədər uzadılıb.

ABŞ-ın "General Atomics Aeronautical Systems" şirkəti yaxın illərdə daha böyük PUA-ların yaradılmasına başla-

yacağını da açıqlayıb. Yeni PUA-ların uzunluğu 24 metr olacaq. Bu da PUA-nın havada 42 saata qədər qalması deməkdir. Hazırda istismarda olan PUA-ların maksimum uzunluğu isə 20 metrdir.

İLK PİLOTSUZ YERÜSTÜ HİBRİD APARAT

Estoniyalı mütəxəssislər dünyada ilk dəfə olaraq pilotsuz yerüstü hibrid aparatı istehsal ediblər. "Milrem" şirkəti

tərəfindən istehsal olunan aparat tırtıllıdır və çoxməqsədli döyüş modulu ilə də təchiz olunub. Hibrid maşın -60 dərəcədən +40 dərəcəyə qədər olan temperaturda işlək mexanizmlə də təchiz olunub.

Texnika döyüş meydanında bir sıra məqsədlər, o cümlədən, yaralıların çıxarılmasına da xidmət edə biləcək. Maşının çəkisi 750 kq-dır və 500 kq çəkisindəki yükü daşımaq imkanına malikdir. Tırtılın köməyi ilə bu naqliyyat vasitəsi istənilən şəraitdə hərəkət edə biləcək.

L-39NG TƏYYARƏSİNİN İLK UÇUŞU HƏYATA KEÇİRİLİB

Modernləşdirilmiş L-39NG təlim-döyüş təyyarəsinin ilk uçuşu həyata keçirilib. Nümayiş Çexiyanın paytaxtı Praqa yaxınlığındakı "Aero Vodochody Aerospace" şirkətinin aerodromunda baş tutub.

L-39NG ABŞ istehsalı olan "Williams International FJ44-4M" mühərriki ilə təchiz olunub. 1700 kq olan təlim təyyarəsi raqəmsal idarəetmə sistemi ilə də təchiz edilib. L-39NG-nin avionikası da yenidən formalaşdırılıb. Belə

ki, təyyarəyə "Genesys Aerosystems" istehsalı olan bort quraşdırılıb.

Pilot oturacağı yeni "0-0" katapulta ilə təchiz edilib. Qanadaltı hissədə silahdaşıma imkanı olan təyyarədə ciddi modernləşdirmə işləri aparılsa da klassik görünüşü saxlanılıb.

Təyyarənin 2018-ci ildən satışına başlanılacağı bildirilir.

Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti mayor Anar Orucova **qayınanasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Rasim Mustafayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hərbi xəbərlər "AzeriDefence" İnformasiya Agentliyinin məlumatları əsasında hazırlanıb

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

№ 19 (461)
16 oktyabr 2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

ƏSGƏR

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

"AZƏRBAYCAN GÜCLÜ ÖLKƏDİR, İQTİSADİ VƏ SİYASİ SAHƏDƏ BÖYÜK UĞURLARA İMZA ATIB"

Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Prezident İlham Əliyev bu il dünyada davam edən böhrana, neftin qiymətinin kəskin düşməsinə, ölkəmizə qarşı əsassız təzyiqlərə və bəzi hallarda təxribatlara baxmayaraq, ötən 9 ayda Azərbaycan iqtisadiyyatının inkişaf etdiyini bildirdi. Bu dövrdə iqtisadiyyat 3,7 faiz, sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi 10 faizdən çox, kənd təsərrüfatı istehsalı 6,7 faiz artıb. İlin 9 ayında inflyasiya 3,7 faiz təşkil edib, əhalinin pul gəlirləri 5,8 faiz artıb, ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulub.

Dövlətimizin başçısı sosial sahədə icra olunan layihələrdən danışarkən qeyd etdi ki, ötən dövrdə ölkədə 34 məktəb, 26 uşaq bağçası, 11 tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı xeyli iş görüldüyünü deyən Prezident İlham Əliyev xüsusilə ünvanlı sosial yardımın verilməsində şəffaflığın təmin edildiyini vurğuladı və bildirdi ki, indi 500 min insan, yeni 114 min ailə ünvanlı sosial yardım alır. Yeni iş yerlərinin yaradılması istiqamətində dövlət siyasətinin ardıcıl həyata keçirilməsi nəticəsində 9 ayda ölkədə 87 min yeni iş yerinin açıldığını, bunun da 67 mininin daimi olduğunu deyən Prezident İlham Əliyev qazanılan uğurları ölkəmizin müstəqil siyasət aparması və Azərbaycanda sabitliyin və təhlükəsizliyin təmin olunması, vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi ilə əlaqələndirdi.

Dövlətimizin tranzit imkanlarının genişləndirilməsi üçün eləmətdar hadisələrin baş verdiyini, Çindən Azərbaycana ilk konteyner qatarının gətirildiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycan hissəsinin tikintisinin başa çatdığını bildirdi. "Cənub" qaz dəhlizinin yaradılması ilə bağlı bu ilin 9 ayında xeyli iş görüldüyünü, "Şahdəniz-2" yatağının işlənməsi, TANAP layihəsinin icrası ilə bağlı ciddi addımların atıldığını diqqətə çatdırdı.

Ordu quruculuğu ilə bağlı da ölkədə mühüm işlərin görüldüyünü, bu sahənin gələn il də prioritet olacağını, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlərin görüləcəyini vurğulayan Prezident İlham Əliyev təmas xəttində Azərbaycanın tam üstünlüyə yiyələndiyini, düşmənin bütün təxribatlarının qarşısının alındığını, ötən ay təmas xəttində düşmənin təxribat qrupunun məhv edildiyini, onların ağır itkilər verdiyini bildirdi. "Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq prinsipləri əsasında və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır", - deyən Prezident İlham Əliyev Ermənistandakı kriminal diktatura rejiminin Dağlıq Qarabağın Ermənistanın ayrılmaz hissəsi olması ilə bağlı verdiyi bəyanata toxunaraq bildirdi ki, dünya birliyi və beynəlxalq təşkilatlar Dağlıq Qarabağı

Azərbaycan ərazisi kimi tanıyır. "Bu gərgin psixoloji durumda verilən bəyanat Ermənistan rəhbərliyini ifşa və biabır edir", - deyən dövlətimizin başçısı xunta rejimindən bundan artığını gözləməyin mümkün olmadığını diqqətə çatdırdı. "Azərbaycan güclü ölkədir, iqtisadi və siyasi sahədə böyük uğurlara imza atıb və regional məsələlərdə mühüm rol oynayır, ölkəmizin iştirakı və razılığı olmadan bölgədə heç bir layihə icra oluna bilməz", - deyən Prezident İlham Əliyev iqtisadi və hərbi potensialın Azərbaycanın gücünü daha da artırdığını bəyan etdi.

Sonra iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, səhiyyə naziri Oqtay Şirəliyev, təhsil naziri Mikayıl Cabbarov bu ilin 9 ayında görülən işlərlə bağlı məruzə etdilər.

Yekun nitqində Prezident İlham Əliyev bildirdi ki, qlobal rəqabətlilik qabiliyyətinə görə Davos İqtisadi Forumu ölkəmizi 40-cı yerdə qərarlaşdırıb. Bununla da, Azərbaycan MDB-də birinci yerdədir, beynəlxalq reytinq agentlikləri də ölkəmizin reytinqlərini yüksəldib. Ölkədə maliyyə intizamının gücləndirilməsinin, izafi xərclərə yol verilməməsinin vacibliyini deyən dövlətimizin başçısı bildirdi ki, prioritet təşkil etməyən layihələrə vəsaitin ayrılması dayandırılmalı, büdcə xərclərinin strukturuna yenidən baxılmalı və büdcə vəsaiti qənaətlə işlədilməlidir. Bundan əlavə, sahibkarlar vergiləri vaxtında ödəməli, onların qarşısında əsassız ödəmələrlə bağlı tələb qoyulmamalıdır. Korrupsiya ilə mübarizə hallarının daha da gücləndirilməsinin, bu sahədə sistem xarakterli islahatların davam etdirilməsinin, "ASAN xidmət"in fəaliyyətinin genişləndirilməsinin zəruri olduğunu deyən Prezident İlham Əliyev korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə ictimai nəzarətin də gücləndirilməsinin əhəmiyyətindən danışdı.

Dövlətimizin başçısı dedi ki, ölkədə dayanıqlı inkişafın təmin olunması üçün bundan sonra da sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılmalı, xarici sərmayələr daha çox qeyri-neft sektoruna cəlb olunmalı, biznes mühiti yaxşılaşdırılmalı, yoxlamaların tənzimləmə mexanizmləri hazırlanmalı, yoxlamaların və lisenziyaların sayı kəskin şəkildə aşağı salınmalıdır.

Prezident İlham Əliyev kənd təsərrüfatının və sənayenin inkişafı, meliorativ tədbirlərin görülməsi, yeni əkin sahələrinin yaradılması, bundan əlavə, dərman bazarında vəziyyətə nəzarətin daha da gücləndirilməsi, metronun yeni stansiyalarının tikintisinin davam etdirilməsinin də vacibliyini diqqətə çatdırdı.

Birinci Avropa Oyunlarının ölkəmizə marağı daha da artırdığını, turizm sektorunun inkişafına təkan verdiyini deyən dövlətimizin başçısı gələn illərdə keçiriləcək idman tədbirlərinin də bu baxımdan əhəmiyyətli olacağını bildirdi.

Prezident İlham Əliyev "Cənub" qaz dəhlizinin tikintisi ilə bağlı tədbirlərin vaxtında həyata keçirilməsinə dair tapşırıqlarını verdi, ilin sonuna qədər nəzərdə tutulan bütün tədbirlərin uğurla reallaşacağına əminliyini ifadə etdi.

AZƏRTAC

18 OKTYABR– MÜSTƏQİLLİK GÜNÜ!

Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə və çətinliyə dözməyi bacarasan. Tale ələ gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan isə 70 ildən sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu.

1991-ci il... Azadlığın yaxınlaşdığını duyan xalq öz əzəli və əbədi arzusuna qovuşmaq, həmin tarixi anı tezləşdirmək üçün hər şeyə hazır idi. Bu xalq artıq milli-azadlıq hərəkatında bərkimiş, Yanvar qırğınını görmüşdü. İmperiyanın tankları da artıq azadlığa

gedən yolun qarşısını kəsməyə qadir deyildi. Özünün istiqlal mübarizəsində neçə-neçə şəhid və qurbanlar vermiş Azərbaycan addım-addım, inadla müstəqilliyə doğru gedirdi. 1991-ci ilin bir payız günü uzun-uzadı qızğın müzakirələrdən sonra "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bununla da, Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyuldu.

Bir tərəfdən imperiyanın dağılmağa başlaması, digər tərəfdən xalqın artmaqda olan təzyiqi respublikanın hakim dairələrini manevr etmək məcburiyyətində qoymuşdu. Yuxarılar da belə hesab edirdilər ki, bu sənədin qəbul edilməsi xalqı sakitləşdirəcək, hakimiyyətin ömrünü uzatmağa imkan verəcəkdir. Ona görə də təsadüfi deyildi ki, "Konstitusiya Aktı" ilkin mərhələdə yalnız quru kağız olaraq qalır, Azərbaycan yenə də Moskvadan idarə edilir, rejim Kremlin dediyi ilə oturub-durur.

Lakin indi bunlar arxada qalmışdır. Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirildi.

Referendum bülleteninə bir söz yazılmışdı: "Siz "Azərbaycanın dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktı"na tərəfdarsınızmı?" Səsvermə hüququ olanların 95%-dən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başladı. Onun müstəqilliyini dünya dövlətləri tanıdı. Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və digər dövlətlər tanıdı.

Azərbaycanın BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlandı.

Müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səbatsız, sərişt əsiz adamların yerit-dikləri səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin beşi yhdəcə boğulması təhlükəsini reallaşdırırdı. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına eyni dərəcədə diqqət yetirilir.

Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb.

"Əsgər"

DAXİLİ QOŞUNLARIN SUMQAYIT ŞƏHƏRİNDƏKİ "N" SAYLI HƏRBİ HİSSƏSİNDƏ YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI OLUB

Oktyabrın 14-də Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının Sumqayıt şəhərində yerləşən "N" saylı hərbi hissəsinin ərazisində zabit və gizirlər üçün yeni tikilmiş xidməti yaşayış kompleksinin açılış mərasimi keçirilib.

Tədbirdə Azərbaycanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov iştirak edib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qarşılanma mərasimi olub, nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Ramil Usubova şəxsi heyətin mərasimə hazır olması barədə raport verib.

Nazir şərəf manqası ilə salamlaşdıqdan sonra yeni binada hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olub. Məlumat verilib ki, inşasına 2014-cü ilin aprelində başlanmış beşmərtəbəli bina hər cür zəruri avadanlıqla təchiz edilib. Ümumi yaşayış sahəsi 4800 kvadratmetr olan kompleks 60 mənzildən ibarətdir. Ərazidə hərbi qulluqçuların uşaqları üçün oyun meydançası da yaradılıb, abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Ramil Usubov dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını qeyd edib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin şəxsi heyətin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyini nəzərə çatdıran nazir buna görə dərin minnətdarlığını bildirib. Nazir Ali Baş Komandanı əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaq.

Yeni mənzillərlə təmin olunmuş hərbi qulluqçular və onların ailə üzvləri yüksək diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə dərin minnətdarlıqlarını çatdırıblar.

Sonra R.Usubov Sumqayıt Şəhər Polis İdarəsinə gələrək yeni təyin olunmuş rəisi təqdim edib.

Şəxsi heyətlə görüşən nazir son illər şəhər polis idarəsinin cinayətkarlıqla mübarizədə və ictimai təhlükəsizliyin təmin olunmasında müsbət nəticələr qazandığını vurğulayaraq uğurların davamlı olmasının, hər bir əməkdaşın öz məsuliyyətini dərk edərək qarşıya qoyulan bütün tapşırıqların öhdəsindən layiqincə gəlmələrinin vacibliyini diqqətə çatdırıb.

Daxili işlər naziri əmin olduğunu bildirib ki, İdarənin şəxsi heyəti respublikanın bu mühüm sənaye mərkəzində asayişin, əminamanlığın nümunəvi qorunması və cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz əhəmiyyətli töhfəsini verəcək, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, vətəndaşların müraciətlərinə operativ reaksiya verilməsi və vaxtında baxılması sahəsində üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirəcək.

Hər iki mərasimdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov iştirak edib.

DAXİLİ QOŞUNLARDA HƏRBİ İNTİZAMIN VƏZİYYƏTİNƏ DAİR HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

Daxili Qoşunlarda hərbi intizamın vəziyyətinə dair Hərbi Şuranın iclası keçirilib.

Oktyabrın 14-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın hərbi intizamın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. İclasda Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Tapdıqov, Baş İdarənin şöbə və xidmət rəisləri, hərbi hissələrin komandirləri, onların tərbiyə işləri və maddi texniki təminat üzrə müavinləri iştirak edib.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı, Hərbi Şuranın sədri general-leytenant Şahin Məmmədov giriş sözü ilə çıxış edərək gündəlikdə duran məsələləri iclas iştirakçılarının diqqətinə çatdırıb.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan dövlətinin 2015-ci ildə daha da möhkəmləndiyini deyən general-leytenant Ş.Məmmədov, dünyada və regionda iqtisadi böhranın dərinləşdiyi bir zamanda respublikamızda sosial-iqtisadi yüksəlişin davam etdiyini bildirib.

Daxili Qoşunların Komandanı Daxili Qoşunlarda həyata keçirilən mühüm islahatlardan bəhs edərək, Bakı şəhərində və ətraf rayonlarda şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni zabit yataqxanalarının, müasir standartların tələblərinə uyğun qərargahların, əsgər kazarmalarının və digər xidməti obyektlərin istifadəyə verilməsini bu inkişafın bariz nümunəsi kimi dəyərləndirib.

General-leytenant Ş.Məmmədov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş Daxili Qoşunlar təhsil müddət ərzində ictimai asayişin və təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanıb, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərdə fəal iştirak edərək qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirib.

Sonra "Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti və qarşıda duran vəzifələr" barədə polkovnik Matlab Qənbərov məruzə edib.

Məruzədə bildirilib ki, cari ildə Qoşunların şəxsi heyəti ilə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, nizamnamədənkənar münasibətlərin və xəsarətalma hallarının qarşısının alınmasına yönəlib. Ötən müddətdə xidmət-döyüş tapşırıqlarının xüsusiyyəti nəzərə alınmaqla onların müvəffəqiyyətlə yerinə yetirilməsində psixoloji dözümlüyün artırılmasına, xidmətin keyfiyyətlə aparılmasında komandir və rəislərin şəxsi nümunə göstərmələrinə xüsusi diqqət yetirilib, şəxsi heyətin ictimai-siyasi hazırlığının daha da artırılmasına önəm verilib.

Sonra Hərbi Şuranın iclasında bir sıra hərbi hissələrin komandirləri çıxış edərək əldə olunmuş nailiyyətlərlə yanaşı, mövcud nöqsanlar, onların yaranma səbəbləri, eyni zamanda, bu nöqsanların aradan qaldırılması və gələcəkdə təkrarlanmaması üçün görülməsi zəruri olan tədbirlər barədə məruzə ediblər.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov yekun nitq söyləyərək bildirib ki, hərbi intizamın təhlilinə dair edilən məruzə və çıxışların məntiqi nəticəsi kimi, tərbiyə işində və hərbi intizamın möhkəmləndirilməsində 2014-cü ilə müqayisədə müsbət nailiyyətlər əldə edilib.

Daxili Qoşunların Komandanı qarşıda duran əsas vəzifələrin icrasının yüksək səviyyədə təmin edilməsi məqsədilə bir sıra tələb və tapşırıqlarını verərək əminliklə qeyd edib ki, Qoşunların rəhbərliyi başda olmaqla, hərbi hissələrin komandanlıqları, Baş İdarənin şöbə və xidmət rəislərі Azərbaycan Respublikasının qanunlarından, ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fərman və sərəncamlarından, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, ölkədə sabitliyin və hüquq qaydasının keşiyində metinliklə dayanacaqdır.

Mətbuat xidməti

İCTİMAİ RƏY SORĞUSUNUN NƏTİCƏLƏRİ AZƏRBAYCANDA SABİTLİK VƏ TƏHLÜKƏSİZLİK OLDUĞUNU TƏSDİQLƏYİR

Amerikanın nüfuzlu "Arthur J. Finkelstein & Associates" ictimai rəyin öyrənilməsi beynəlxalq mərkəzi Azərbaycan əhalisi arasında qarşıdan gələn parlament seçkiləri ilə bağlı keçirdiyi sorğunun nəticələrini dərc edib.

Məlumatda deyilir: "Seçicilərin təxminən 80 faizi hesab edir ki, Azərbaycan hazırkı hakimiyyət orqanlarının rəhbərliyi altında düzgün istiqamətdə irəliləyir və Dağlıq Qarabağ münaqişəsi ölkə gündəmində ən vacib məsələdir".

İctimai rəy sorğusu 5,1 milyon azərbaycanlı seçicinin qərarına təsir göstərən geniş ahatəli məsələlər üzərində cəmləşib. Onların ölkəsi düzgün istiqamətdə irəlilə - yirmi sualına iştirakçıların 77,1 faizi müsbət, 14,7 faizi mənfi cavab verib. Sorğu edilənlərin 41,3 faizi deyib ki, onları narahat edən ən mühüm məsələ beynəlxalq qətnamələrin Ermənistan işğalçı ordusunun dərhal çıxarılmasını tələb etməsinə baxmayaraq, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və 7 ətraf rayonu hələ də işğal altında saxlamasıdır, respondentlərin 7,2 faizi isə iqtisadi məsələlər üzrə narahatlığını bildirib.

Geosiyasi məsələlərlə bağlı respondentlərin 81,7 faizi qeyd edib ki, Azərbaycan regionda "sabitlik adasıdır", bir çox ölkələr bu regionda qeyri-sabit durumdadır. Respondentlərin 71 faizi Avropada baş verən hadisələri nəzərə alaraq, ölkənin indiki rəhbərliyinin Azərbaycanda immiqrasiya böhranının yayılmasının qarşısını almağa hazır və iqtidarı olduğunu vurğulayıb.

Rəyi soruşulan vətəndaşların 80 faizindən çoxu, həmçinin qeyd ediblər ki, Qərb partnyorları ilə təhlükəsizlik sahəsində əməkdaşlıq edən dövlətin rəhbərliyi ölkəni terrorizmdən uğurla müdafiə edir.

Sorğunun məlumatına görə, seçicilərin 74,4 faizi öz seçimini müəyyən edərək Yeni Azərbaycan Partiyasının namizədlərini üstün tuturlar. Mərkəzin məlumatına görə, 14 faiz isə öz seçimində qərarlaşmayıb.

Sorğu iştirakçılarına onların Prezident İlham Əliyevin indiki işini necə dəyərləndirdikləri barədə də sual verilib. Respondentlərin 82,1 faizi "yaxşı" və "əla" cavablarını veriblər.

Ümumilikdə, 1000 respondentin iştirak etdiyi sorğu bu il sentyabrın 28-dən oktyabrın 9-dək Azərbaycanın 108 seçki dairəsində aparılıb.

AZƏRTAC

BELARUS DAXİLİ QOŞUNLARININ NÜMAYƏNDƏ HEYƏTİNİN AZƏRBAYCANA SƏFƏRİ

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində beloruslu qonaqları qəbul edib. Qonaqları səmimi salamlayan general-leytenant Ş.Məmmədov bu görüşün hər iki ölkənin Daxili Qoşunları arasında əlaqələrin inkişafına təkan verəcəyini bildirib.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Belarus Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasındakı hərbi əməkdaşlıq və dostluq münasibətlərinin möv - cudluğundan məmnunluq ifadə olunub.

Polkovnik İqor Burmistrov səmimi və qonaqpərvər qəbul üçün dərin təşəkkürünü bildirərək, ölkəmizə rəsmi səfəri - nin əməkdaşlığın bundan sonra da uğurlu inkişafına dəstək verəcəyini və hər iki dövlətin müvafiq qurumları arasında münasibətlərin daha da genişləndirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşün sonunda qonaqlara xatirə şəkli çəkilib.

Qeyd edək ki, səfər çərçivəsində beloruslu nümayəndə heyəti Azərbaycanın zəngin tarixi-mədəni həyatını əks etdirən bir sıra muzeylərdə də olub.

Mətbuat xidməti

ALİ HƏRBİ MƏKTƏBDƏ "GİZİRLƏRİN HAZIRLANMASI KURSU"NUN 13-cü MƏRHƏLƏSİNİN BURAXILIŞI OLUB

Oktyabrın 2-də Daxili Qoşunların Ali Hərbi Məktəbində "Gizirlərin hazırlanması kursu"nun 13-cü mərhələsinin buraxılışı münasibəti ilə təntənəli tədbir keçirilib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və respublikamızın suverenliyi, erazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Dövlət himni ifa olunub.

Təbrik üçün söz Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədova verilib. "Gizirlərin hazırlanması kursu"nun müvəffəqiyyətlə başa çatdığını bildirən Ali Hərbi Məktəb rəisi bu müddət ərzində tədrisin keyfiyyətlə təşkil olunmasına, nizamnamə tələblərinin və hərbi intizamın hərbi qulluqçular tərəfindən daha dərindən mənimsənilməsinə, onların bilik səviyyəsinin artırılmasına xüsusi diqqət yetirildiyini bildirib.

General-mayor İ.Məmmədov tədris kursunu başa vuran gizirlərin əldə etdikləri billiklərdən hərbi hissələrdə xidmətlərini davam etdirərkən istifadə edəcəklərinə, müəllim və komandir heyətinin onlara olan inamını doğruldacaqlarına əminliyini ifadə edib.

Sonra Ali Hərbi Məktəbin rəisi kursu əla qiymətlərlə bitirərək, 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülən məzunlara şəhadətnamələri təqdim edib.

Məzunlar adından çıxış edən gizir Əlisuvar Həsənov da tədris kursu müddətində istər müəllim, istərsə də komandir heyəti tərəfindən hər bir hərbi qulluqçuya xüsusi diqqət və qayğı ilə yanaşıldığını bildirib.

O, bundan sonra da Vətənə, xalqa, dövlətə, sədaqətlə xidmət edəcəklərini, həvalə olunan bütün tapşırıqları vicdanla və məsuliyyətlə yerinə yetiracaklərini qeyd edib.

Tədbir gizir Ə.Həsənovun "Gizirlərin hazırlanması kursu"nun 13-cü mərhələsi adından "Xatirə kötüyü"nə üzərində adı həkk olunmuş lövhəni vurması ilə başa çatıb.

19 HƏRBİ QULLUQÇUMUZ «ZOĞALI BERET» DAŞIMA HÜQUQU QAZANIB

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən, 99713, 67987, 16075, 17074, 17072, 16073 və 16077 saylı hərbi hissələrin xüsusi təyinatlı dəstələrinin hərbi qulluqçuları ilə sentyabrın 21-dən 23-dək Daxili Qoşunların Xızı rayonunda yerləşən Təlim mərkəzinin və 99713 saylı hərbi hissəsinin ərazisində «Zoğalı beret» daşıma hüququ qazanmaq uğrunda sınaqlar keçirilib. Sınaqların ümumi nəticələrinə əsasən, 99713, 16073, 16077 və 16075 saylı hərbi hissələr daha yaxşı nəticələr əldə ediblər.

Belə ki, 99713 və 16073 saylı hərbi hissələrin hər birindən 7, 16077 saylı hərbi hissədən 5, 16075 saylı hərbi hissədən 4, 67987 saylı hərbi hissədən 2, 17074 hərbi hissədən isə 1 nəfər hərbi qulluqçu bütün sınaqlardan müvəffəqiyyətlə keçərək, «Zoğalı beret» daşıma hüququ qazanıb.

SNAYPER VƏ HƏMLƏ QRUPLARI ARASINDA BİRİNCİLƏR MƏLUM OLDU

«2015-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təvqim planı»nın, eləcə də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunlar Komandanının müvafiq əmrlərinin tələblərinə əsasən, sentyabrın 15-dən 19-dək qoşunların Təlim Mərkəzində yarışlar keçirilib.

Yarışlara Daxili Qoşunların xüsusi təyinatlı həmlə qrupunun hərbi qulluqçuları və snayperlər cəlb olunub. Müvafiq göstərişə əsasən, hərbi qulluqçular tibbi müayinədən keçdikdən sonra fiziki hazırlıq üzrə normativlərin, avtomatdan atəş çalışmasının yerinə yetirilməsi, eləcə də təyin olunmuş marşrut üzrə ərazidə silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi üzrə tədbirlərin icrası təmin olunub.

Ümumilikdə, qoşunların 16077, 99713 və 25033 saylı hərbi hissələrinin xüsusi təyinatlıları keçirilən yarışlarda müsbət nəticələr əldə edib. Yerlər isə aşağıdakı kimi müəyyənləşib:

1-ci yer - 16077 saylı hərbi hissə;

2-ci yer - 99713 saylı hərbi hissə;

3-cü yer - 25033 saylı hərbi hissə;

Son üçlükdə:

7-ci yer - 16073 saylı hərbi hissə;

8-ci yer - 17072 saylı hərbi hissə;

9-cu yer - 12318 saylı hərbi hissə.

Hərbi hissələrin snayperləri arasında yarışlar üzrə:

1-ci yer - 99713 saylı hərbi hissə;

2-ci yer - 17074 saylı hərbi hissə;

3-cü yer - 12318 saylı hərbi hissə;

Son üçlükdə:

7-ci yer - 17072 saylı hərbi hissə;

8-ci yer - 25033 saylı hərbi hissə;

9-cu yer - 16073 saylı hərbi hissə.

Yarışların nəticələrinə görə, birinciliyi qazanan 16077 və 99713 saylı hərbi hissələrin komandaları kubokla, 2-ci və 3-cü yeri tutmuş komandalar isə diplomla mükafatlandırılıblar.

GƏNC ƏSGƏRLƏRİN QƏBULU DAVAM EDİR

Qəbul prosesi Daxili Qoşunlar Komandanlığının nəzarəti altında həyata keçirilməkdədir

Ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Sərəncamına əsasən, oktyabr ayının 1-dən etibarən 1996-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş Azərbaycan Respublikasının vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması prosesinə başlanılmışdır. Sərəncamdan irəli gələn tələblərə uyğun olaraq, Daxili Qoşunlarda gənc çağırışçıların qəbulu həyata keçirilməkdədir.

Qoşunlarda xidmətə yeni qəbul edilmiş gənclərin hərbi xidmətə tədricən uyğunlaşdırılması, hərbi nizamnamələrin müddəaları ilə tanış olmalarını, eləcə də mənəvi-psixoloji durumun yüksək səviyyədə saxlanmasını təmin etmək üçün müvafiq tədbirlər planı təsdiq olunub və yeni tədris proqramı hazırlanıb.

Çağırış məntəqəsinin yerləşdiyi 25031 saylı hərbi hissənin komandiri polkovnik Salamat Cəfərov bildirdi ki, gənc əsgərlərin qəbulu prosesi birbaşa olaraq Daxili Qoşunlar Komandanlığının ciddi nəzarəti altındadır. Qəbul edilən gənclər ilk olaraq genişləndirilmiş tibbi müayinədən keçirilir. Bu müayinələr Daxili Qoşunların hospitalının ixtisaslı həkimləri tərəfindən aparılır. Müayynə edilmiş tələblərə cavab verən çağırışçılar hərbi ləvazimatlarla tam təmin olunaraq, ilkin hazırlıq məşğələlərinə başlanılır.

Qısa müddət ərzində xeyli işlərin görüldüyünü diqqətə çatdıran hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant R.Məmmədov bildirdi ki, gənc əsgərlərin 45 günlük təlim dövründə bütün tədbirlər plana uyğun olaraq həyata keçirilir. Gənc çağırışçıların qəbulu ilə əlaqədar olaraq, qəbul məntəqəsi təbliğat-təşviqat vasitələri ilə təchiz olunub, divar qəzetləri, şəxsi işlər və yaddaş kitabçaları hazırlanıb, asudə vaxtın səmərəli təşkili üçün mədəni-maarif əmlaklarının vəziyyəti yoxlanılıb, çatışmazlıqlar aradan qaldırılıb.

Təsdiq olunmuş plana uyğun olaraq, şənbəbazar günləri bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bu müddət ərzində gənc əsgərlərin Daxili Qoşunların veteranları ilə görüşləri, qoşunların tarixini əks etdirən muzeyə gəzintiləri təşkil ediləcək. İstər veteranlarla görüşlərdə, istərsə də muzeydə onlara Daxili Qoşunların tarixi, döyüş yolu, qəhrəmanlıq nümunələri, həmçinin Silahlı Qüvvələrin Ali Baş Komandanı, Respublika Prezidenti cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi diqqət və qayğı barədə ətraflı məlumatlar veriləcəkdir. Bundan əlavə, gənc əsgərlərlə mütəmadi olaraq tərbiyəvi mövzularda söhbətlər aparılır, hərbi xidmətin üstünlükləri izah edilir, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslər aşılanır.

Əsgərlər hərbi xidmətə qəbul olunduqları ilk gündən başlayaraq onlarla fərdi söhbətlər aparılır, xüsusi diqqət tələb edən çağırışçılar nəzarətə götürülür və ruh yüksəkliyi yaratmaq üçün onlara qayğı ilə yanaşılır.

Təlim dövründə, eyni zamanda, ictimai-siyasi, sıra, fiziki və ataş hazırlığı məşğələlərinə önəm verilir. Daxili Qoşunların təyinatı və vəzifələri, istifadədə olan silahların taktiki-texniki xüsusiyyətləri, nişanalma və təhlükəsizlik qaydaları, hərbi qulluqçular arasında qarşılıqlı münasibətləri özündə əks etdirən müvafiq nizamnamələrin müddəaları ilə bərabər, qanunvericilik aktları da gənc əsgərlərə öyrədilir. Sonuncu həftədə isə praktiki atışlar yerinə yetirilir və hər bir əsgər fərdi qaydada qiymətləndirilir.

Bütün bunlar deməyə əsas verir ki, hərbi hissədə həyata keçirilən tədbirlər gənc əsgərlərin Vətənə layiqli əsl vətənpərvər hərbi qulluqçular kimi formalaşmasında mühüm rol oynayacaqdır.

leytenant X.Tağıyeva

Hərbi qulluqçularımızın keyfiyyətli geyim və əşya əmlakları ilə vaxtında təmin olunması hər zaman Daxili Qoşunlar Komandanlığının diqqət mərkəzində saxladığı məsələlərdəndir. Qoşunların hərbi hissələrində də bu işləri əşya xidmətləri həyata keçirir.

Qış mövsümü ərəfəsində 99713 saylı hərbi hissədə olarkən şəxsi heyətin geyim təminatının vəziyyəti və bundan irəli gələn bir sıra tapşırıqların icrası ilə əlaqədar material hazırlamaq qərarına gəldim.

Təbii ki, hərbi hissədə hərbi qulluqçuların geyim təminatının lazımi səviyyədə həyata keçirilməsində Əşya xidmətinin üzərinə mühüm vəzifələr düşür. Xidmətin əsas fəaliyyəti hərbi hissənin hərbi hissədə şəxsi heyətə paylanılır. Hərbi hissənin əşya əmlakları ilə təminatı müvafiq plan üzrə ildə 2 dəfə - yay planı üzrə aprel ayının 1-nə, qış planı üzrə oktyabr ayının 1-nə kimi aparılır. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları isə ayda 1 dəfə lazımi əşya əmlakları ilə təmin olunurlar. Əmlaklar hərbi qulluqçuların hər birinə onların bədən ölçülərinə uyğun verilir.

Xidmət rəisi görülən işlərdə anbar rəisi baş çavuş Zamiq Mikayılovun və kargüzar çavuş Ülviyyə Mamedovanın əməyini də xüsusilə vurğuladı. Qeyd etdi ki, baş çavuş Z.Mikayılov 2009-cu ildən Daxili Qoşunlarda, 2013-cü ildən isə Əşya anbarının rəisi vəzifəsində xidmət edir. Çavuş Ülviyyə Mamedova isə 2006-cı ildən Daxili Qoşunlarda xidmətdədir.

HƏRBİ QULLUQÇULARIMIZIN ƏŞYA-ƏMLAK TƏMİNATI YÜKSƏK SƏVİYYƏDƏ HƏYATA KEÇİRİLİR

Şəxsi heyətini geyim və əşya əmlakları ilə təmin etməkdir. Xidmət rəisi mayor İlqar İbrahimov xidmətin işinin "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sülh dövründə əşya təminatı haqqında" Əsasnamənin tələblərinə əsasən təşkil olunduğunu bildirdi. Bu əsasnamə sülh dövründə Daxili Qoşunların hərbi qulluqçularının və hərbi hissələrinin əşya təminatının məqsəd, vəzifə və qaydalarını müəyyən edir. Sənəddə, eyni zamanda, Daxili Qoşunların hərbi qulluqçularının hərbi geyim və əşya əmlakları ilə təchizat normaları da öz əksini tapıb.

Mayor İ.İbrahimovla söhbət zamanı məlum oldu ki, hərbi qulluqçuların əşya əmlakları ilə təminatı müvafiq hesabat-sifarişlər əsasında həyata keçirilir. Həmin hesabat-sifarişlər hərbi hissələrdə şəxsi heyətin siyahı sayına uyğun olaraq tərtib olunur. Əşya əmlakları qoşunların Mərkəzi anbarından - 64412 saylı hərbi hissədən alınır və Hər iki hərbi qulluqçu xidməti vəzifələrin öhdəsindən layiqincə gəlir, onlara verilən bütün tapşırıqları məsuliyyət və yüksək keyfiyyətlə yerinə yetirir.

Xidmətin fəaliyyətindən danışarkən, camaşırxanda çalışan mülki işçilərin əməyini də qeyd etmək yerinə düşərdi. Camaşırxanaçılar Ülviyyə Mirzəyeva, Ədibə Misirova və İlhamə Ağcayeva hərbi hissənin müddətli hərbi qulluqçularının təmiz, səliqəli geyim və camaşırlarla təmin olunmasında əllərindən gələni əsirgəmirlər. Camaşırxanada geyimlərin təmizlənməsi, qurudulması, ütülənməsi müasir standartlara uyğun avadanlıqlarla həyata keçirilir.

Bu işlərə hərbi qulluqçuların deyil, məhz qadınların cəlb edilməsi olduqca təqdirəlayiq haldır. Bütün bunlar şəxsi heyətə göstərilən xüsusi diqqət və qayğının təzahürüdür.

leytenant X.Tağıyeva

İNSAN HÜQUQLARI VƏ ƏSAS AZADLIQLARI HAQQINDA AVROPA KONVENSİYASI

(əvvəli ötən sayımızda)

Maddə 6. Ədalətli məhkəmə hüququ

1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, əğlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, əşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər.

2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut edilənədək təqsirsiz hesab edilir.

3. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir:

a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq;

b) öz müdafəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;

c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək;

d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırmaq və dindirməyə nail olmaq;

e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

Maddə 7. Qanunsuz cəzalandırılmamaq

1. Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz. Habelə, cinayət əməlinin törədildiyi zaman tətbiq olunandan daha ağır cəza verilə bilməz.

2. Bu maddə törədildiyi zaman sivil ölkələrin tanıdığı əsas hüquq prinsiplərinə müvafiq olaraq cinayət hesab edilən hər hansı hərəkət və ya hərəkətsizlik törətməyə görə istənilən şəxsin mühakimə edilməsinə və ya cəzalandırılmasına mane olmur.

Maddə 8. Şəxsi və ailə həyatına hörmət hüququ

1. Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir.

2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün sağlamlığı, yaxud mənəviyyəti mühafizə etmək üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, dövlət hakimiyyəti orqanları tərəfindən bu hüququn həyata keçirilməsinə mane olmağa yol verilmir.

Maddə 9. Fikir, vicdan və din azadlığı

1. Hər kəsin fikir, vicdan və din azadlığı hüququ var, bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq, yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir.

2. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyəti qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.

Maddə 10. İfadə etmək (ekspression) azadlığı

1. Hər kəs (öz fikrini - tərc.) ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur.

2. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın, yaxud mənəviyyətin mühafizəsi üçün, digər şəxslərin nüfuzu və hüquqlarının müdafiəsi üçün gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən formallıqlara, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

Maddə 11. Yığıncaqlar və birləşmək azadlığı

1. Hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla başqaları ilə birləşmək azadlığı hüququ var.

2. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın mühafizəsi üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyətlər qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

Maddə 12. Nikah hüququ

Nikah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən milli qanunvericiliyə mü